Kanadada yaşayan əziz Azərbaycanlılar!

Azərbaycan Respublikasının Kanadadakı Səfirliyi və şəxsən öz adımdan Dünya Azarbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə səmimi qəlbdən təbrik edir, möhkəm cansağlığı, əmin-amanlıq və işlərinizdə uğurlar arzulayıram.

Bildirmək istərdim ki, Ottava şəhərində Azərbaycan Respublikasının nümayəndəliyi açılandan bəri Kanadada yaşayan bütün Azərbaycanlılarla əlaqələr yaradılmasına səy göstərilmiş, onlarla birlikdə müxtəlif tədbirlər həyata keçirilmişdir.

Dünya Azərbaycanlılarının həmrəyliyi və mütəşəkkilliyinin güclənməsi və ümumilli ideyalar ətraflnda daha sıx birləşməsi üçün biz Azərbaycanlıların və Azərbaycan Respublikasının qarşısında duran vəzifələr Azərbaycan Respublikasının Prezidenti Zati-Aliləri cənab İlham Əliyevin Dünya Azərbaycanlılarına ünvanlanmış 27 dekabr 2004-cü il tarixli müraciətində ifadə edilmişdir.

Dünya Azərbaycanlılarlının qarşısında duran məqsəd və vəzifələrə nail olmaqda Kanadada yaşayan Azərbaycanlıların potensial imkanlarına və Sizinlə möhkəmlənməkdə olan əlaqələrimizə inanıram.

Fürsətdən istifadə edərək Sizi bir daha Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə təbrik edir va bu həmrəyliyin əldə edilməsi və daha da möhkəmləndirilməsində yeni-yeni uğurlar arzu edirəm.

Dərin hörmətlə,

Fəxrəddin Qurbanov
Azərbaycan
Respublikasının
Kanadada
Fövqəladə və
Səlahiyyətli Səfiri

-- Converted from Word to PDF by CAPA